# NEFT EMALI SƏNAYESİNDƏ ALINAN EKOTOKSİKANTLARIN TƏDQİQİ

**Hacıyeva S.R., Bayramov Q.İ., Səmədov C.Z.**

*Bakı Dövlət Universiteti*
*celairsamadov@gmail.com*

NEZ-in tərəfimizdən təmizləyici qurğularından götürülən İTS nümunələrinin ilkin olaraq müxtəlif 10;15;25;40ºC temperaturda buxarlandırılması zamanı sərbəst $H_2S$-in ayrılması qaz analizator vasitəsi ilə müəyyənləşdirilmişdir. NEZ-də texnoloji proseslər zamanı alınan $H_2S$-in tutulması, zərərsizləşdirilməsi metodlarına baxmayaraq, istehsalatda formalaşan istehsalat tullantı sularının tərkibində həll olmuş şəkildə $H_2S$-in qalması ilə əlaqədar olaraq həmin suların təmizlənməsi prosesi zamanı atmosfer havasına $H_2S$ daxil olur. Texnoloji və təmizləyici qurğulardan atmosferə atılan ekotoksikant - $H_2S$ maddəsinin ekoloji, hətta bəzi hallarda sanitar normada olmasına baxmayaraq ətraf mühitin ekoloji çirklənməsinə və nəticədə biosferdə ekoloji problemlərin yaranması səbəblərindən biri kimi qiymətləndirilməsini əsaslı hesab etmək olar.

Qeyri-üzvi birləşmələrdən $H_2S$-in yüksək dərəcədə ekotoksikoloji xüsusiyyətlərinə malik olması haqqında bir çox ədəbiyyatlarda geniş məlumat verilmişdir. Məhz buna görə də texnoloji proseslərdən əvvəl və həmçinin sonra $H_2S$-in azaldılması, tutulması, qazlar qarışığından və tullantı sularından ekoloji effektli təmizlənməsi üsulunun işlənilməsi və həmçinin ondan məqsədli olaraq $SO_2$, $SO_3$ birləşmələrinin yeni metodla alınmasının son nəticəsində $H_2SO_4$ turşusu istehsalında xammal kimi istifadə olunması üzrə yeni metodların işlənilməsi mühüm ekoloji problemlərin həlli üzrə çox əhəmiyyətli olan ən aktual mövzular kimi qiymətləndirilməsini elmi əsaslı hesab etmək olar. Yuxarıda qeyd olunan işlərlə bərabər NEZ-in istehsalat sahələrində digər ekotoksikantların alınması səbəbləri və onların ətraf mühitə təsirlərinin müəyyənləşdirilməsi üzrə tədqiqat işi davam etdirilir.